**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNDƏ İŞĞAL DÖVRÜNDƏ APARILMIŞ İDXAL VƏ İXRACIN İQTİSADİ-HÜQUQİ QİYMƏTLƏNDİRİLMƏSİ

| | |
|---|---|
| İxtisas: | 5310.01- Dünya iqtisadiyyatı |
| Elm sahəsi: | 53 – İqtisad elmləri |
| İddiaçı: | **Nərgiz Üzeyir qızı Hacıyeva** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın
**AVTOREFERATI**

**BAKI – 2024**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və İsveçrə Konfederasiyasının Saint Qallen Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad üzrə elmlər doktoru, professor
**İrşad Abdul oğlu Kərimli**

Rəsmi opponentlər: iqtisad üzrə elmlər doktoru, professor
**Hacıağa Baxış oğlu Rüstəmbəyov**

iqtisad üzrə fəlsəfə doktoru
**Əfqan Əbülfəz oğlu Musayev**

iqtisad üzrə fəlsəfə doktoru
**Əsmər Qurban qızı Mənəfova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: _______________ imza — iqtisad elmləri doktoru, professor
**Yadulla Həmdulla oğlu Həsənli**

Dissertasiya şurasının elmi katibi: _______________ imza — iqtisad elmləri namizədi
**Rəşad Aktiv oğlu Hüseynov**

Elmi seminarın sədri: _______________ imza — iqtisad elmlər doktoru, professor
**Müşfiq Yelmar oğlu Quliyev**

# G İ R İ Ş

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dissertasiya işində Qarabağ və ətraf rayonların 30 illik işğalı dövründə Ermənistan tərəfindən mülkiyyət və əqli mülkiyyət hüquqlarının pozulması fonunda təbii sərvətlərin qanunsuz istismarı, mal və xidmətlərin qanunsuz ticarət nişanları ilə xarici ölkələrə ixracı və idxalı, əsas etibarilə, qanunsuz iqtisadi əməliyyatların və fəaliyyətlərin iqtisadi-hüquqi qiymətləndirilməsi aparılır. Əvvəllər tədqiqat obyekti olmayan bu mövzu həm təhlilin dəyəri, həm də mövzunun praktikliyi baxımından çox aktualdır. Beynəlxalq siyasət çərçivəsinə və coğrafi sərhədlərə əsaslanaraq, işğal olunmuş ərazilərdə əqli mülkiyyət və mülkiyyət hüquqlarının tənzimlənməsi malların və digər resursların qeyri-qanuni istifadəsi baxımından öz həllini gözləyən çox ciddi problemə çevrilmişdir.

Müasir beynəlxalq siyasətdə əqli mülkiyyət və mülkiyyət hüquqları (ƏMH) getdikcə qlobal əməkdaşlıq, eləcə də münaqişələr meydanına çevrilir. Ermənistan Azərbaycan ərazilərinin 30 illik işğalı dönəmində bu ərazilərdə qeyri-qanuni fəaliyyətə fəal dəstək verməklə nəinki davam edən maliyyə çətinliklərini aradan qaldırdı, həm də kənd təsərrüfatı və mineral məhsullarının 90%-dən çoxunu idxal və ixrac etməklə işğal olunmuş ərazilərdəki ehtiyatların istismarı, xaricdə səhv etiketlənmiş və saxta ticarət nişanları almış mal və məhsulların satışından iqtisadi fayda əldə etmişdi. Qeyri-qanuni bazar fəaliyyətlərindən əldə edilən gəlirlər işğal olunmuş ərazilərdə fəaliyyət göstərən münaqişə iştirakçıları və silahlı qruplar üçün əhəmiyyətli maliyyə mənbəyi kimi çıxış edir. Qarabağ tarixən Azərbaycanın ayrılmaz hissəsi olub, lakin bu ərazilərin 30 ildir ki, Ermənistanın işğalı altında olması səbəbindən Azərbaycan ərazilərində qeyri-qanuni istehsal olunan məhsul və malların istismarı və tranzit daşınması işğal zamanı Ermənistanın faktiki ərazisi ilə məhdudlaşdırılmışdır. Odur ki, Azərbaycan həmin torpaqlar işğaldan azad edilənə qədər məcburi tədbirlər, əqli mülkiyyətin və mülkiyyət hüquqlarının tənzimlənməsinə dair mərkəzləşdirilmiş siyasətin zəifliyi səbəbindən Qarabağ və ətraf rayonlarda qanunsuz ticarət nişanları, patent, təbii resursların istismarı və üçüncü dövlətlərə daşınmasına müdaxilə edə bilmirdi. İşğal dönəmində Azərbaycan hökuməti və AR Xarici İşlər Nazirliyi tərəfindən xarici ölkələrdə Azərbaycan məhsullarının "Made in

Armenia" brendi ilə sərgiləyən Ermənistana ayrı-ayrı vaxtlarda təşkil olunan sərgilərdə müdaxilələr edilməyinə baxmayaraq qanunsuz ticarət və malların tranziti 30 il müddətində Azərbaycan ərazilərinin suverenlik prinsipinə və ərazi bütövlüyünə zidd şəkildə həyata keçirilmişdir. Hüquqi çərçivədə əsaslandırıldıqda, buradan belə bir nəticəyə gəlmək olur ki, malların və xidmətlərin istimarı və qanunsuz tranzit daşınması, təbii resurslara müdaxilə və istismar ilk öncə, Azərbaycanın suverenlik prinsipi, ərazi bütövlüyünə birbaşa müdaxilə, beynəlxalq hüquq və mülkiyyət hüquqlarının prinsiplərinə ziddir. Bundan əlavə, qeyri-qanuni bazarlara diqqət yetirilməməsi onların tədqiqindən əldə edilə biləcək nəzəri fikirlərin əskik olmasına səbəb olmuşdur. Qanunsuz iqtisadi və ya bazar fəaliyyəti heterogen xarakter daşıyır və dövlət və qeyri-dövlət sektorlarının qeyri-leqal transsərhəd əməliyyatlarını dəstəkləyir. Sözügedən transsərhəd əməliyyatlarına işğal dönəmində Basarkeçər-Ağdərə yolu ilə qanunsuz ticarət və iqtisadi əməliyyatların həyata keçirilməsi vacib misaldır. Qeyri-qanuni bazarla əlaqəli fəaliyyətlər dövlət gəlirlərinin itirilməsi və qanuni iqtisadi sektorlara zərər də daxil olmaqla ciddi iqtisadi təsirlərə səbəb olur. Həqiqətən də, bu fəaliyyətlərin miqyasını və dinamikasını başa düşmək regional və beynəlxalq təhlükəsizlik üçün çox vacibdir. Bu özünü Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 illik işğalı dönəmində açıq şəkildə göstərmişdir.

**Tədqiqatın obyekti** olaraq işğaldan azad olunmuş ərazilərdə işğal dönəmində Ermənistan tərəfindən mülkiyyət, xüsusilə, əqli mülkiyyət hüquqlarının pozulması fonunda qanunsuz iqtisadi əməliyyatların, idxal və ixrac proseslərinin aparıldığı Qarabağ və ətraf rayonlar seçilmişdir.

**Tədqiqatın predmetini** isə Qarabağ və ətraf ərazilərin işğal dönəmində mülkiyyət, xüsusən əqli mülkiyyət hüququnun pozulması ilə əlaqədar qanunsuz idxal-ixrac əməliyyatlarının aparılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Azərbaycanın işğaldan azad olunmuş ərazilərində işğal dönəmində Ermənistan tərəfindən qanunsuz olaraq ixrac və idxal olunmuş malların, məhsulların və həmin ərazilərə məxsus olan digər təbii resursların qanunsuz istismarının iqtisadi-hüquqi tərəflərinin tədqiq edilməsindən ibarətdir. Tədqiqat işinin məqsədinə nail olmaq üçün onun aşağıda qeyd olunan **vəzifələrinə** diqqət yetirmək lazımdır.

1. Mülkiyyətə, xüsusən əqli mülkiyyətə dair nəzəriyyələrdə iqtisadi

- hüquqi amillərin qarşılıqlı əlaqəsi, onun iqtisadiyyat və sosial rifahla qarşılıqlı əlaqəsinin təsviri;

2. Qanunsuz bazar fəaliyyətinə dair ədəbiyyatlara təhlili baxış və təsnifatının verilməsi;

3. İşğal dövründə Azərbaycan ərazilərində Ermənistan tərəfindən həyata keçirilmiş qanunsuz bazar fəaliyyəti, bu və ya digər iqtisadi fəaliyyətlərin təhlil edilməsi;

4. İşğal dövründə Qarabağ və ətraf rayonlarda Ermənistan tərəfindən aparılmış idxal və ixrac əməliyyatlarının iqtisadi təhlili, qanunsuz ixrac həcmləri, tollinq əməliyyatlarə, qanunsuz ticarət nişanı, iqtisadi fəaliyyət və müsadirəni analiz etmək;

5. Qarabağda qanunsuz idxal və ixrac proseslərinin, iqtisadi fəaliyyətlərin dövlət, beynəlxalq hüquqi sənədlərlə təhlili, resursların qanunsuz istismarı və daşınması əməliyyatının, müxtəlif dövlətlər nümunəsində müqayisəli təhlili və əsaslandırılması;

6. II Qarabağ müharibəsindən sonrakı dönəmin, bərpa və quruculuq işlərinin təhlili və regionun iqtisadi inkişafına təsirini müəyyən etmək.

**Tədqiqat metodları.** Tədqiqat işinin təhlili iki əsas hissəni özündə cəmləşdirir: nəzəri və empirik tədqiqat təhlili. Tədqiqatın növbəti mərhələsində metodoloji işin əsas hissəsi kimi müzakirələr müxtəlif dövlət və qeyri-hökumət qurumlarından olan aparıcı diplomatlar, elm adamları, iqtisadçılar, fikir sahibləri, alimlər və siyasi analitiklərlə aparılmışdır. St. Qallen Universiteti, Malaqa Universitetinin və s. universitetlərin siyasi iqtisadiyyat və hüquq professorları, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı Cenevrə ofisinin nümayəndələrindən müsahibə götürülmüşdür. Dissertasiyada müqayisəli tədqiqat metodu (Comparative research method), təsviri tədqiqat metodu (Descriptive research method), tarixi tədqiqat metodu (Historical research method), longitudal case metodundan (Longitudal tədqiqat metodu), məlumat toplama (data collection), keys araşdırmaları və mind-mapping metodundan istifadə edilmişdir. Tədqiqat işinə dair İsveçrənin St. Qallen Universitetində 2022-ci il 29 aprel tarixində professor və tədqiqatçılardan ibarət fokus qrupu ilə tədqiqat seminarı təşkil edilmişdir. Bundan əlavə, tədqiqat mövzusuna dünyanın nüfuzlu universitet və qurumlarında fəaliyyət göstərən professor-ekspertlərin rəyləri alınmışdır. (Əlavə 43, 44, 45, 46, 47, 48, 49, 50)

Dissertasiya işinin əsas qaynaqlar siyahısını, monoqrafiyalar, elmi məqalələr, müzakirə sənədləri, illik strateji planlar və çərçivə qanunları daxil olmaqla müxtəlif ingilis, rus, azərbaycan, türk və erməni dillərində olan mənbələr təşkil edir. Müəllif ayrıca olaraq fərqli elektron mediaya, dövlət rəhbərlərinin açıqlamalarına və çıxışlarına istinad etmişdir. Bundan başqa Əqli Mülkiyyət Hüququna dair qanunlar çərçivəsi, Dünya Əqli Mülkiyyət Təşkilatının statistikaları Ümumdünya Ticarət Təşkilatının məlumatları, Avropa İttifaqının Şərq Tərəfdaşlıq Siyasətinə uyğun olaraq bu dövlətlərlə mallar və xidmətlər üzrə razılaşdığı Assosiasiya sazişlərinə, Dərin və Hərtərəfli Sərbəst Ticarət Sazişinin maddələrinə, Aİ-nin Xarici Fəaliyyət Planına, Haaqa və Cenevrə Konvensiyaları, BMT-nin ayrı-ayrı qətnamələri, ABŞ Federal İxrac platformasının - Export Gov-un Azərbaycana və Ermənistana dair hesabatı, yerli qanunvericilik aktları, Trading Economics, Ermənistan Dövlət Statistika Xidməti, AR XİN-nin Ermənistanın qanunsuz iqtisadi və digər fəaliyyətlərinə dair 2016-cı il hesabatına, APO və ÜƏMT-nın patent data bazaları və digər vacib mənbələrə istinad edilərək əldə edilmiş məlumatlar dissertasiya işində uğurla istifadə edilmiş və dissertasiya işinə dair xarici professor və ekspertlər öz rəylərini bildirmişdilər.

**Müdafiəyə təqdim edilən əsas müddəalar**

1. Dissertasiya işində mülkiyyətə, xüsusən əqli mülkiyyətə dair alimlərin nəzəri fikir və konsepsiyalarında iqtisadi-hüquqi amillərin qarşılıqlı əlaqəsinin təhlil edilmiş və nəzəri əsaslandırma empirik hissə ilə tamamlanmışdır. Müəllifin təhlillər əsasında gəldiyi fikir odur ki, mülkiyyət və əqli mülkiyyətin qorunması, qanunsuz iqtisadi fəaliyyət və idxal-ixrac əməliyyatlarının qarşısının alınmasında işğal olunmuş ərazilər kontekstində dissertasiya işində təhlil olunan nəzəri fikirlərdə ölkələrin üzləşə biləcəyi potensial problemlər və onların həlli ilə əlaqədar mümkün arqumentlər öz əksini tapmamışdır.

2. Ermənistan tərəfindən 30 il müddətində Azərbaycan ərazilərində həyata keçirilmiş qanunsuz bazar və digər iqtisadi fəaliyyətlər, idxal və ixrac əməliyyatları, qanunsuz özəlləşdirmə, qanunsuz ticarə nişanları, patentlər, ayrılan sərmayələr, təbii resursları istismarı və xarici ölkələri daşınması, tollinq əməliyyatları dərindən təhlil edilmiş və qanunsuz iqtisadi fəaliyyətlərə dair əsaslandırmalar irəli sürülmüşdür. Dissertasiya işi göstərir ki, illeqal bazar əməliyyatları heterogen xarakterə sahibdir və

dinamikdir və işğal olunmuş ərazilər kontekstində çox az tədqiq olunmuşdur.

3. Dissertasiya işi göstərir ki, Azərbaycan 30 illik işğal dövründə milli maneələrdən irəli gələn ƏM-in və mülkiyyətin qorunması və tənzimlənməsində müvafiq əskikliklərin olması səbəbindən Qarabağda və ona bitişik rayonlarda Ermənistan tərəfindən öz məhsullarının qanunsuz istifadəsinə və ya mənimsənilməsinə qarşı müdaxiləedici tədbirlər həyata keçirərkən problemlərlə üzləşmişdir. İşğal dövründə Azərbaycan bu kimi hüquqların qorunması, qanunsuz sahibkarlığın, investisiyaların, ticarətin qarşısının alınmasına müdaxilə edə bilməmiş və nəticədə, bu ərazilərdə resursların istismarı və idxal-ixrac əməliyyatlarında Ermənistanın daxili qanunları tətbiq edilmişdir.

4. II Qarabağ müharibəsindən sonrakı dönəmin, bərpa və quruculuq işləri, post-müharibə dövründə mülkiyyət və əqli mülkiyyət sahəsində vacib islahatların keçirilməsi, iqtisadi hüquq, ona riayət edilməsi və tənzimlənməsinin vacibliyi tədqiqat işində ön plana çəkilərək Qarabağ bölgəsində azad ticarət, məhsul və xidmətlərin səmərəli axını, sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi və digər ticarət fəaliyyətlərin həyata keçirilməsində mühüm rol oynayır.

5. Dissertasiya işi göstərdi ki, ərazi prinsipallığı – "Principium territorialitatis" məsələsi Azərbaycana öz ərazilərinə müdaxilə etməyə mane olmuş və Azərbaycan işğal dönəmində əqli mülkiyyət və mülkiyyət hüquqlarının qorunmasında çətinliklərlə üzləşmişdi. Nəticə etibarilə, beynəlxalq hüququn prinsiplərinə zidd olsa da, Qarabağ bölgəsində mülkiyyət və ƏM hüquqları Ermənistanın daxili – patent, əqli mülkiyyət və mülkiyyət haqqında qanunları çərçivəsində həyata keçirilir və beynəlxalq şirkətlərə patent və lisenziya hüququ Ermənistan tərəfindən verilirdi.

**Tədqiqatın elmi yeniliyi**

1. Dissertasiya işi Azərbaycan hökuməti tərəfindən gələcək dövrlərdə inzibati boşluqların aradan qaldırılması, işğaldan azad olunmuş ərazilərdə qeyri-qanuni ixrac və idxal probleminin effektiv həlli üçün daxili qanunlarda dəyişikliklər və ya əlavələr, təkmilləşdirilmiş icra mexanizmləri və gücləndirilmiş beynəlxalq əməkdaşlıq da daxil olmaqla, zəruri tədbirlərin görülməsi və təxirəsalınmaz islahatların keçirilməsində mühüm rol oynayacaqdır.

2. Dissertasiya işi ÜƏMT, ÜTT, Aİ-nin Assosiasiya Sazişləri, APO və digər beynəlxalq və regional qurumları ərazisi işğala məruz qalmış həssas ölkələrə münasibətdə beynəlxalq hüquqi çərçivə sənədlərinə və qanunlara dəyişikliklər və ya əlavələr edilməsini tövsiyə edəcəkdir. Bu kimi əlavələr və dəyişiklər təkcə regional və ya beynəlxalq səviyyədə deyil, eyni zamanda, ərazisi işğala məruz qalmış milli dövlətlər səviyyəsində də, onların qanunlarına münasibətdə nəzərə alınması, zəruri dəyişikliklər edilməsı, inzibati, icra və hüquqi sistemlərdə islahatların keçirilməsində mühüm əhəmiyyət kəsb edəcəkdir.

3. Dissertasiya işi mövzu ilə əlaqədar müxtəlif dövlətlər nümunəsində gələcək elmi tədqiqat işlərinin ortaya çıxması, mülkiyyət və əqli mülkiyyətin pozulması kontekstində qanunsuz idxal və ixrac, iqtisadi fəaliyyət və istismarla əlaqədar elmdəki boşluqların aradan qaldırılması və maarifləndirmənin aparılmasında elmə mühüm töfhələr verəcəkdir. Dissertasiyanın elmi yeniliyi işğal altında olan Azərbaycan ərazilərində Ermənistan tərəfindən 30 il müddətində həyata keçirilmiş qeyri-qanuni ticarət və iqtisadi fəaliyyətin, idxal və ixracın nəticələrinin dərk edilməsinə fənlərarası – iqtisadi - hüquqi yanaşmanı təmin edəcəkdir.

4. Dissertasiya işi azad ticarətin təminatı, mal və xidmətlərin təşkili, əqli mülkiyyətin tənzimlənməsi və qorunması, qeyri-qanuni ixrac və idxal prosesinin qarşısının alınması üçün müvafiq iqtisadi, inzibati və icra tədbirlərinin həyata keçirilməsinə mühüm töhfələr verəcəkdir. Azərbaycan tərəfi sərhəd nəzarətini gücləndirəcək, qaçaqmalçılıq və qeyri-qanuni ticarət fəaliyyətlərinin qarşısını almaq üçün sərhədlər boyunca daha yaxşı müşahidə və kəşfiyyat imkanları yaradacaqdır.

5. Dissertasiya işi gələcəkdə ərazi problemi ilə üzləşən dövlətlər üçün fundamental elmi bələdçi rolunu oynayacaq, dövlətlərdən mülkiyyət hüquqlarının müdafiəsi və iqtisadi fəaliyyətin tənzimlənməsi, zəruri islahatların aparılması, əqli mülkiyyət hüquqlarının pozulması ilə mübarizə sahəsində beynəlxalq hüquqi sənədlərə istinad etməyi və təcrübə çıxarmağı önə qoyacaqdır. Mülkiyyət və ƏM hüquqlarının pozulması Ermənistanı cinayət məsuliyyətinə cəlb edir və beynəlxalq hüququn hüquqi prinsiplərinə istinad edərək işğalçı dövlətdən təzminat tələb etməyə haqq verəcəkdir.

6. Azərbaycanın məlumat və resursları bölüşmək üçün qonşu ölkələr, beynəlxalq təşkilatlar və hüquq-mühafizə orqanları ilə

əməkdaşlığı transsərhəd və heterogen xarakter daşıyan qeyri-qanuni ticarətlə effektiv mübarizə aparmağa şərait yaradacaqdır. Azərbaycan qaçaqmalçılıq, korrupsiya və qeyri-qanuni ticarətin digər formalarını hədəf alan qanunvericilik bazasını gücləndirəcəkdir. İşğaldan azad olunmuş ərazilərdə qanuni biznes fəaliyyətini və iqtisadi artımı təşviq etməklə hökumət alternativ gəlir imkanları təmin etməsi və cinayət fəaliyyətləri üçün stimulları azaldılmasında mühüm töfhələr verəcəkdir.

7. Dissertasiya işi işğal olunmuş ərazilər kontekstində qanunsuz iqtisadi fəaliyyət, idxal və ixrac əməliyyatlarının qiymətləndirilməsinin iqtisadi-hüquqi cəhətdən birgə öyrənilməsinin vacibliyini önə çıxararaq gələcəkdə bu sahədə aparılan tədqiqatlarda iqtisadi və hüquqi aspektlərin birgə vəhdət şəklində analiz edilməsinin əhəmiyyətini təsdiq etdi.

8. Dissertasiya işində əks olunan vacib empirik məlumatlar məhz işğal olunmuş ərazilər kontekstində elmi sahədə qeyri-qanuni ticarətin və iqtisadi fəaliyyətin nəticələri haqqında savadlılığın artırılmasında və bu kimi aktual bir sahədə elm tutumlu gələcək tədqiqatların aparılması və elmi boşluqların aradan qaldırılmasında mühüm rol oynayacaqdır. Dissertasiya işi bundan sonrakı elmi araşdırmalar üçün baza rolunu oynayacaqdır. Dissertasiya işinin materiallarından, oxşar problemlərin təhlili və araşdırılması zamanı, ali məktəblərdə dünya iqtisadiyyatı, siyasi iqtisad, siyasi elmlər, konfliktologiya və əqli mülkiyyətə dair kurslarının tədrisi prosesində istifadə oluna bilər.

9. Aktual bir sahə olan, qanunsuz bazar və digər iqtisadi fəaliyyətlərin analiz edilməsinə daha yaxşı cavab verən iqtisadi sosiologiya fənninin və qanunsuz iqtisadi fəaliyyətin əsasını təşkil edən iqtisadi hüquq fənninin vacibliyini önə çıxaracaqdır. Həqiqətən də, bu tədqiqatın nəticələri Avrasiya və ondan kənarda münaqişəli ərazilərlə mübarizə aparan dövlətlərlə bağlı elmi ədəbiyyatların genişlənməsinə və elmi maarifləndirmənin artmasına çox mühüm töhfələr verəcəkdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Mövzunun nəzəri və praktiki əhəmiyyəti onun nəinki, iqtisadi və siyasi, eyni zamanda, hüquqi sahəyə verəcəyi töfhədən ibarətdir. İlk dəfə olaraq, tədqiqat işi əqli mülkiyyət və mülkiyyət hüquqları ilə iqtisadi-hüquqi faktorları bir araya gətirərək işğal dövründə Ermənistan tərəfindən qanunsuz həyata keçirilmiş iqtisadi fəaliyyətləri təhlil edir. Dissertasiya işi işğal olunmuş ərazilər kontekstində qanunsuz iqtisadi fəaliyyət, idxal və ixrac

əməliyyatlarının qiymətləndirilməsinin iqtisadi-hüquqi cəhətdən birgə öyrənilməsinin vacibliyini önə çıxararaq gələcəkdə bu sahədə aparılan tədqiqatlarda iqtisadi-hüquqi aspektlərin birgə vəhdət şəklində analiz edilməsinin əhəmiyyətini təsdiq etdi. Beləliklə, seçilmiş tədqiqat işi gələcəkdə Azərbaycanda işğaldan azad olunmuş ərazilərdə azad ticarətin qanuni təmin olunması, malların və xidmətlərin təşkili, əqli mülkiyyət və mülkiyyət hüquqlarının iqtisadi cəhətdən tənzimlənməsi və islahatların keçirilməsi, ölkəyə məxsus olan malların qanunsuz ixracı və idxalı prosesinin qarşısının alınması üçün müvafiq iqtisadi, inzibati və icra tədbirlərinin həyata keçirilməsində mühüm töfhələr verəcəkdir. Dissertasiya işi bundan sonrakı elmi tədqiqatlar üçün mühüm baza rolunu oynayacaqdır.

**Dissertasiya işində aşağıda qeyd olunanlara nail olunur.**

- Müəllif ilk dəfə işğaldan azad olunmuş ərazilərdə əqli mülkiyyətin və mülkiyyətin tənzimlənməsi qaydaları, qanunsuz malların və xidmətlərin iqtisadi-hüquqi dəyərləndirilməsi ilə bağlı bütün məlumatları və faktları toplamışdır. Mövzu tamamilə özünün yenilikçi xüsusiyyətləri ilə fərqlənir. Dissertasiya işinin praktiki əhəmiyyəti onun nəinki, siyasi və iqtisadi, eyni zamanda, hüquqi sahəyə verəcəyi töfhələrdən ibarətdir.
- Müəllif əsasən işğal olunmuş ərazilərdə iqtisadi-siyasi göstəriciləri və mühiti nəzərə alaraq ƏM və mülkiyyətin pozulmasını təhlil edərək nəzəri hissənin empirik hissəyə uğurlu tətbiqini təmin edir. Belə ki, nəzəri hissədə mülkiyyət hüquqi və iqtisadi hüququn konsepsiyalarına istinad edilərək, seçilmiş tədqiqat mövzusuna tətbiq edilir.
- Dissertasiya işi qeyd olunan ölkələrin işğal olunmuş ərazilərində ƏM-in iqtisadi cəhətdən tənzimləmə sistemi ilə bağlı ətraflı məlumat və təhlillər təqdim edir.
- Müəllif, həmçinin tədqiq olunan ölkələrə məxsus olan malların işğalçı dövlət tərəfdən qanunsuz istifadəsinin qarşınını almaq üçün ƏM və mülkiyyət hüquqlarının tənzimləməsi zamanı ölkələrin qarşılaşdığı əsas ziddiyətli məsələləri ortaya çıxarmaqla müqayisəli təhlilini aparır və daxili-beynəlxalq sənədlərə istinad edərək əsaslandırır.
- Müəllif ilk dəfə olaraq, işğal dövründə ölkənin Qarabağ və ətraf rayonlarda qanunsuz iqtisadi fəaliyyətlər, qanunsuz istismar, tollinq

əməliyyatları və bu ərazilərdə malların qanunsuz daşınmasının qarşısını almaq üçün ƏM-ə tətbiq olunan icra və iqtisadi tədbirlərin müqayisəli təhlilini aparır. Ayrı-ayrı ölkələrin işğal təcrübəsində istifadəyə etdiyi mümkün metodları ortaya qoyur və analiz edir.

- Dissertasiya işi ilk dəfə olaraq Ermənistan tərəfindən Azərbaycan ərazilərində qanunsuz iqtisadi və ya bazar fəaliyyətinin aparılmasını monoqrafiya şəklində azərbaycan və ingilis dillərində dünya ictimaiyyətinə çatdıracaqdır.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat materialları üzrə ümumilikdə, 23 elmi iş, o cümlədən AAK-ın tövsiyə etdiyi jurnallarda 7 elmi məqalə dərc edilmişdir. Təhsil müddəti ərzində "Azərbaycanın azad olunmuş ərazilərində işğal dövründə aparılmış qanunsuz idxal və ixracın iqtisadi-hüquqi qiymətləndirilməsi" mövzusunda tədqiqat aparmış və alınan nəticələr üzrə yerli elmi jurnallarda 1, xarici elmi jurnallarda 6 məqalənin nəşr edilmişdir. Azərbaycanda təşkil edilən 4 və xarici ölkələrdə təşkil edilən 10 beynəlxalq elmi konfranslarda dissertasiyanın əsas müddəaları barədə təqdimatlar, eləcə də, İsveçrə, Polşa, Macarıstan və İspaniya, Birləşmiş Krallıq, ABŞ, Sinqapur, Argentinada ənənəvi və onlayn formatda təşkil olunan müxtəlif forum və tədqiqat seminarlarında elmi tədqiqat işi ilə əlaqədar müəllif elmi məruzələr etmişdir. Bundan əlavə, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradovla İngiltərə, Polşa və Ruminiyada Scopus indeksli elmi jurnallarda elmi məqalələr nəşr olunmuş və İsveçrənin St. Qallen Universitetinin beynəlxalq kitabxana bazasına da daxil edilmişdir. Müəllif tərəfindən nəşr edilən elmi məqalələr Norveçin Aqder Universitetində Dr. Joseph Solomonsen tərəfindən tədris olunan "0404 Geosiyasət" fənnində tədris materialları kimi istifadə edilir. Dissertasiya işi Azərbaycan Respublikası Prezidentinin 11 iyul 2019-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi haqqında əsasnamə" nin və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının müvafiq tələblərinə uyğun qaydada tamamlanmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Dövlət İqtisad Universiteti

**İşin həcmi.** Dissertasiya işi giriş (32696 işarə), 3 fəsil (I fəsil 62064 işarə, II fəsil 111317 işarə, III fəsil 29236 işarə), nəticə və təkliflərdən (14648 işarə), 245 adda ədəbiyyat siyahısından ibarətdir. İşdə 13 cədvəl,

6 şəkil, 6 sxem, 22 və 51 əlavə verilmişdir. Tədqiqat işi sxemlər, diaqramlar, cədvəllər, şəkillər və ədəbiyyat siyahısı istisna olmaqla 249962 işarədən ibarətdir.

## MÜNDƏRİCAT

Giriş

I Fəsil. Mülkiyyət hüquqlarının qorunmasının elmi-nəzəri və metodoloji əsasları

1.1. Mülkiyyətin iqtisadi məzmunu və onun hüquqi cəhətləri

1.2. Mülkiyyətə dair nəzəriyyələrdə iqtisadi-hüquqi amillərin qarşılıqlı əlaqəsi

1.3. Mülkiyyət hüquqlarına tənqidi yanaşma

II Fəsil. Qarabağ və ətraf ərazilərin işğalı dövründə ermənistanın mal və xidmətlərin qanunsuz idxal və ixracının iqtisadi-hüquqi təhlili və qiymətləndirilməsi

2.1. Təbii sərvətlərin qanunsuz istismarı, tollinq əməliyyatları

2.2. Ermənistan tərəfindən Qarabağ və ətraf rayonlarda həyata keçirilmiş qanunsuz ticarət nişanı, iqtisadi fəaliyyət və müsadirə

2.3. Qarabağ və ətraf rayonlarda qanunsuz idxal və ixrac əməliyyatları

2.4. Qarabağda qanunsuz iqtisadi fəaliyyətlərə dair yerli və beynəlxalq hüquqi sənədlərə baxış və qiymətləndirmə

2.5. İkinci Qarabağ müharibəsindən sonrakı dönəmdə iqtisadi böhran: Ermənistan və resursların itirilməsi

III Fəsil. Tədqiqatin nəticələri və II Qarabağ müharibəsindən sonrakı dönəmdə bərpa və quruculuq işlərinin başlıca istiqamətləri

3.1. Çağdaş dönəmdə II Qarabağ müharibəsindən sonrakı vəziyyət: inkişaf və perspektivlər

3.2. Qarabağ və ətraf rayonlarda bərpa-yenidənqurma işləri və beynəlxalq əməkdaşlıq

Nəticələr və təkliflər

İstifadə edilmiş ədəbiyyat siyahısı

Əlavələr

# İŞİN QISA XÜLASƏSİ

Dissertasiyanın **“Mülkiyyət hüquqlarının qorunmasının elmi, nəzəri və metodoloji əsasları” adlanan I fəslində** müxtəlif alimlərin nəzəri fikirlərinə istinad edilərək mülkiyyət hüquqlarının iqtisadi-hüquqi ölçüləri dərindən araşdırılır. İşğal olunmuş ərazilərdə qeyri-qanuni iqtisadi fəaliyyət - təbii sərvətlərin mənimsənilməsi, mal və xidmətlərin saxtalaşdırılması, habelə patent qeydiyyatı və əşyaların yanlış etiketlənməsi - bunların hamısı beynəlxalq hüququn əsas prinsiplərinə kobud şəkildə pozaraq insanlığa qarşı cinayət hesab olunur. Bu konsepsiya açıq şəkildə beynəlxalq hüquq üzrə tanınmış xarici professorlar Georges Abi-Saab, Dieter Blumenwitz, James Crawford, John Dugard, Christopher Greenwood, Gerhard Hafner, Francisco Orrego-Vicuna, Alain Pellet, Henry Schermers və Christian Tomuschat tərəfindən tədqiq edilmişdir. İşğal dövründə mülkiyyət hüququnun müdafiəsi ilə bağlı araşdırma Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi və Avropa İnsan Hüquqları Komissiyasının keçmiş üzvü Loukis G. Loucaides-in (2004) Kembric Universiteti Nəşriyyatı tərəfindən buraxılan “İşğal olunmuş ərazilərdə mülkiyyət hüququnun müdafiəsi” (“The Protection of the Right to Property in Occupied Territories”) adlı məqaləsində vurğulayır ki, mövcud beynəlxalq hüquqa əsasən, silahlı münaqişə zamanı və ya birbaşa və ya tabeliyində olan idarə vasitəsilə işğalçı dövlət tərəfindən xüsusi torpaqların özgəninkiləşdirilməsi qeyri-qanunidir və bu müsadirə kompensasiya ilə müşayiət olunsa da, etibarsızdır.

Qeyri-qanuni bazar və digər iqtisadi fəaliyyətin milli dövlətlər kontekstində öyrənilməsi son illərdə elmi diqqəti cəlb etmişdir. Bütövlükdə qeyri-qanuni bazar fəaliyyətləri ilə bağlı elmi ədəbiyyatların olmasına baxmayaraq, lakin, məhz işğal olunmuş ərazilər nümunəsində qeyri-rəsmi iqtisadiyyatları və qeyri-qanuni bazarları hərtərəfli araşdıran tədqiqatların az olduğu görünür. “İşğal olunmuş” və ya “münaqişəli" adlandırılan bu ərazilər xüsusi diqqət tələb edən məsələlər və dinamikanın unikal birləşməsini təmin edir.

**Sxem 1** –də İşğal olunmuş ərazilərdə qanunsuz iqtisadi fəaliyyətə cəlb olunan aktorların visual təsviri (mind-mapping) müəllif tərəfindən hazırlanmışdır.




*Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.*

Post-sovet məkanında qanunsuz bazar, bu və ya digər iqtisadi fəaliyyətlər müxtəlif alimlər tərəfindən ümumi şəkildə araşdırılmışdır və işğal olunmuş ərazilərdə bu kimi fəaliyyətlərə az diqqət yetirilmişdir. Ümumi olaraq qanunsuz iqtisadi fəaliyyətlərlə bağlı mühüm ədəbiyyatlara Morris Rossabi, Enrico Polese, Jens Beckert, George Malle və Alena Ledenevanın əsərlərini misal göstərmək olar. Lakin bu ədəbiyyatlarda əsas etibarilə, Sovet İttifaqının dağılmasından sonra müstəqil qazanmış respublikalarda bazar iqtisadiyyatına keçid şəraitində mövcud olan qanunsuz iqtisadi fəaliyyət, kölgə iqtisadiyyatı, (informality) məsələləri tədqiq edilmişdir.

I fəsildə mülkiyyət hüquqlarının iqtisadi fəaliyyətlər üçün necə əsas olduğu və onların hüquqi şərhlərinin iqtisadi subyektlərin davranışına necə əhəmiyyətli təsir göstərdiyi təhlil edilir. Tədqiqatçı mülkiyyət hüququnun hərtərəfli araşdırılması üçün zəmin yaradaraq, mülkiyyət hüququnun müəyyən edilməsində iqtisadi-hüquqi aspektlər arasında nüanslı qarşılıqlı əlaqəni vurğulayır. Bu qarşılıqlı əlaqəni vurğulamaqla, I fəsil mülkiyyət hüquqlarının nəzəri əsaslarının dərindən tədqiqi və onun növbəti fəsillərdə seçilmiş elmi işin predmetinə tətbiqi üçün zəmin hazırlayır. Beləliklə, Qarabağ və ətraf ərazilərin Ermənistan

tərəfindən işğalı səbəbindən Azərbaycan öz ərazisi üzərində nəzarətinin məhdudlaşdırılması ilə qarşı-qarşıya idi. Belə ki, Ermənistan tərəfindən Qarabağ və ətraf ərazilərin işğalı dövründə ƏM və mülkiyyət hüquqlarının pozuntusu birbaşa cinayət məsuliyyəti halı doğurur.

I fəslin növbəti yarımfəsillərində Azərbaycanda mülkiyyət hüquqlarının həyata keçirilməsi ilə bağlı praktiki problemlər araşdırılır, hüquq sistemi və daha geniş institusional çərçivələr daxilində daxili maneələr qiymətləndirilir və Azərbaycanın işğaldan azad olunmuş ərazilərində işğal dövründə mülkiyyət maraqlarının qorunmasında üzləşdiyi çətinlikləri, effektiv icra mexanizmlərinin əhəmiyyətini və bu sahədə ortaya çıxan daxili maneələri aradan qaldırmağın zəruriliyini vurğulayır. I fəsildə eyni zamanda, qeyri-qanuni bazar fəaliyyətləri ilə bağlı mövcud elmi ədəbiyyatın hərtərəfli təhlili aparılır. Bu fəsildə işğal olunmuş ərazilərdə qeyri-qanuni bazarların öyrənilməsinə laqeyd yanaşmaq onların tədqiqindən əldə edilə biləcək dəyərli nəzəri fikirləri əldən vermək vurğulanır. Bu nöqsan bazar dinamikasının əhəmiyyətli aspektini effektiv şəkildə kənarda qoyur və beləliklə, həm qeyri-qanuni, həm də qanuni bazarlarla bağlı nəzəriyyələrin irəliləməsinə mane olur. Ümumilikdə, I Fəsil mülkiyyət hüquqlarının iqtisadi-hüquqi əsaslarını müəyyən edir, mülkiyyət nəzəriyyələrini tədqiq edir və qeyri-qanuni bazar fəaliyyəti çərçivəsində tədqiqatı kontekstləşdirir. Belə ki, tədqiqatın mühüm nəzəri əsaslarını özündə birləşdirən I fəsil sonrakı fəsillərdə Qarabağ və ətraf rayonlarda 30 illik işğal dönəmində mülkiyyət hüquqlarının və onların müdafiəsinin hərtərəfli araşdırılması, üzə çıxan vacib problemlər, qanunsuz idxal və ixracın prosesi və iqtisadi əməliyyatların düzgün empirik təhlili üçün mühüm əhəmiyyət kəsb edir.

Dissertasiyanın **“Qarabağ və ətraf ərazilərin işğalı dövründə ermənistanın mal və xidmətlərin qanunsuz idxal və ixracının iqtisadi-hüquqi təhlili və qiymətləndirilməsi”** adlanan **II fəslində** Qarabağ və ətraf rayonların işğalı zamanı Ermənistan tərəfindən həyata keçirilən təbii sərvətlərin qeyri-qanuni istismarı, mal və məhsulların ixracı və idxalı tədqiq edilmişdir. Bu fəsildə Azərbaycan torpaqlarının 30 illik Ermənistan tərəfindən işğalı dövründə bu ərazilərə məxsus mülkiyyət hüquqları, tollinq əməliyyatları, qanunsuz iqtisadi fəaliyyət, idxal-ixrac həcmlərinin cari iqtisadi-hüquqi qiymətləndirilməsi hərtərəfli aparılır. Belə ki, mühüm empirik məlumatları özündə əks etdirən II fəsildə əsas

etibarilə, işğal dövründə Azərbaycan ərazilərində həyata keçirilən qanunsuz iqtisadi əməliyyatlar, mallar və xidmətlərin qanunsuz yollarla daşınması, yerli və xarici şirkətlərin investisiyası, Pan-Ermənistan fondu və digər fonlar və institutlar, Erməni bankları tərəfindən müxtəlif sektorlara ayrılan sərmayələr, onların miqdarı, yüzlərlə beynəlxalq şirkətlər tərəfindən aparılan qanunsuz iqtisadi əməliyyatlar, faydalı qazıntıların istismar edilməsi üçün xarici ölkələrdən idxal olunan nəqliyyat və texniki avadanlıqlar, məhsulların saxtalaşdırılması, patentləşdirmə, Suriya və Livan ermənilərinin Qarabağ və ətraf rayonlarda qanunsuz məskunlaşdırma və köçürmə siyasətinin təşkili və s. bu kimi qanunsuz iqtisadi fəaliyyətlər və müxtəlif sektorlarda aparılan tollinq əməliyyatları ətraflı şəkildə tədqiq edilərək cədvəllər, diaqramlar, fiqurlar və sxemlərlə təsvir edilmişdir. Ermənistan Mərkəzi Bankı (CBA) işğal dövründə Azərbaycan ərazilərində "bank sisteminin" inkişafında, orada fəaliyyət göstərən bankların aktivlərinin və kreditləşmə imkanlarının artırılmasında bilavasitə iştirak edirdi. İşğal dövründə "Stepanakert Brendi Fabriki" QSC öz məhsullarını, yəni "Artsax tut (Gümüş və qızıl yaşlı)", "Artsax ərik", "Artsax zoğalı", "Berdaşen", "Madatoff" araqlarını, "Şuşi" Qırmızı", "Şuşi Quru Narı", "Gishi Rose" şərab markaları "Ermənistan məhsulu" etiketi altında digər ölkələrə ixrac edilirdi. Los-Anceles və Çikaqoda "Erməni məhsulu" ilə Ohanyan brendləri və Avetisiya şərabları da nümayiş etdirilirdi.



**Şəkil 1. Erməni dilində "Stepanakert, Ermənistan" yazılmış "Artsax Fruit QSC" məhsulunun qeyri-qanuni brendi**

Mənbə: www.vestnikkavkaza.net

Azərbaycan torpaqlarının 30 ilə yaxın işğalı ərzində həmin ərazilərdə təbii sərvətlərin hasilatı və mənimsənilməsi sahəsində bir çox beynəlxalq şirkətlər qanunsuz fəaliyyət göstərib. Ermənistan işğalı zamanı Qarabağda tollinq əməliyyatları və hesablaşmalardan qızıl filizi, gümüş, molibden və digər metalların emal vəziyyətinə gətirilməsində istifadə etmişdir. Tollinq əməliyyatının digər nümunəsi Qarabağda mühüm sahə olan kənd təsərrüfatıdır. Tollinq əməliyyatlarından başqa, işğal zamanı faydalı qazıntılar, kənd təsərrüfatı, su ehtiyatları və digər təbii sərvətlərin bilavasitə erməni və beynəlxalq “kölgə” biznesi üçün nəzərdə tutulduğunu iddia edilirdi. İşğal olunmuş ərazilərdə yerli və xarici donorların birbaşa iştirakı ilə beynəlxalq və yerli şirkət və qurumlar tərəfindən qanunsuz sahibkarlıq və təbii sərvətlərin istismarı böyük iqtisadi ziyan və çoxsaylı ekoloji fəsadlara səbəb olmuşdur. Müasir dövrdə talançılıq siyasətini həyata keçirən Ermənistan 30 il müddətində istismar etdiyi resurslar, həyata keçirdiyi ticarət-iqtisadi fəaliyyətlərlə mülkiyyət, əqli mülkiyyət, beynəlxalq hüquq və iqtisadiyyatın azad ticarət və sahibkarlıq prinsiplərini açıq şəkildə pozmuşdur. Əvvəllər tədqiqat obyekti olmayan bu mövzu həm təhlilin dəyəri, həm də mövzunun praktikliyi baxımından çox aktualdır.




**Sxem 2. Qarabağ və ətraf rayonlarda ən çox investisiya qoyulan sektorlar.**

*Mənbə: Məlumatlar müəllif tərəfindən ayrı-ayrılıqda ER İqtisadiyyat Nazirliyi, Erməni Milli Maraqlar Fondu (ANIF), “Entreprise Armenia”, Ermənistan Respublikasının Statistika Komitəsi, UNCTAD-ın Ermənistanın İnvestisiya Siyasət İcmalından toplanaraq tərtib edilmişdir.*

Dissertasiya işində Ermənistanın işğal zamanı həyata keçirdiyi hərəkətlərin iqtisadi və hüquqi aspektləri, Qarabağ və ətraf rayonların işğaldan azad edilməsindən sonra Azərbaycanın həyata keçirdiyi mühüm tədbirlər müqayisəli şəkildə təhlil edilir. Beynəlxalq siyasət çərçivəsində və coğrafi sərhədlərə əsaslanaraq, işğal olunmuş ərazilərdə əqli mülkiyyət və mülkiyyət hüquqlarının tənzimlənməsi malların və digər resursların qeyri-qanuni istifadəsi baxımından kritik problemə çevrilib. II fəsildə eyni zamanda, qanunsuz şəkildə istifadə edilən resursların təhlil edilməsi və daşınması əməliyyatının hüquqi sənədlərlə əsaslandırılmışdır.

**Cədvəl 1. Xarici, Ermənistan və Qarabağ daxili sərmayələr qoyan şirkətlər siyahısı**

| Şirkətin adı | İnvestisiya miqdarı | İş imkanları | Fəaliyyət sektoru | Yer |
|---|---|---|---|---|
| **Xarici şirkətlərin investisiyası** | | | | |
| **Karabakh Telecom Co.** | $15,000,000 | 30 | Telekommunikasiya | Livan |
| **ATA-Vank-Les Co.** | $1,500,000 | 120 | Parket kafel istehsalı | ABŞ |
| **Sirkap Armenia Co.** | $1,500,000 | 50 | Mehmanxana biznesi | İsveçrə |
| **Haik Watch and Jewelry Co.** | $1,200,000 | 118 | Zərgərlik istehsalı | İsveçrə |
| **ArtsakhBank Co.** | $1,000,000 | | Bankçılıq | İsveçrə |
| **Sirkap Armenia Co.** | $650,000 | 85 | Tikinti materiallarının istehsalı | İsveçrə |
| **Iceberg-A** | $500,000 | 9 | Soyutma sistemləri | Rusiya |
| **Arvard Co.** | $380,000 | 37 | Süd məhsulları istehsalı | ABŞ |
| **Shishmanian Ltd.** | $350,000 | 20 | Qida emalı, makaron istehsalı | Monako |
| **Andranik Shpon Co.** | $340,000 | 25 | Ağac email | İsveçrə |
| **Mika Ltd.** | $287,000 | | Şərab istehsalı | Birləşmiş Krallıq |
| **Australia Nairi Ltd.** | $200,000 | 17 | Mehmanxana biznesi | Avstraliya |
| **Yerkir Tour Co.** | $200,000 | 19 | Mehmanxana biznesi | ABŞ |
| **Sasun Co.** | $123,000 | 12 | Polietilen boruların istehsalı | İran |
| **Minasian Co.** | $100,000 | 35 | Xalça istehsalı | ABŞ |
| **Oil Cracking Co.** | $100,000 | 20 | Neft email | Rusiya |
| **Artsakh Gorg Ltd.** | $50,000 | 45 | Xalça istehsalı | ABŞ |
| **Stepanakert Bread Factory Co.** | $26,000 | | Çörək, makaron istehsalı | ABŞ |
| **SUBTOTAL** | $23,506,000 | 642 | | |
| **Ermənistandan investisiya** | | | | |
| **ArtsakhCable Co.** | $500,000 | 23 | Kabel istehsalı | Ermənistan |
| **Nairi Ltd.** | $442,600 | 150 | Şərab istehsalı | Ermənistan |
| **Lusakert Ltd.** | $300,000 | 150 | Quş əti istehsalı | Ermənistan |

Dissertasiya işi münaqişəli ərazilərdə qeyri-qanuni bazarla bağlı fəaliyyətlərin incəliklərini anlamaqda mövcud elmi boşluğun doldurulması istiqamətində mühüm elmi sənəddir. Nəticədə, tədqiqat işi müxtəlif münaqişə zonalarında dövlət və qeyri-dövlət subyektlərinin qeyri-qanuni bazar fəaliyyətinin mürəkkəbliklərinə nəzər salmaqla bu sahəyə faydalı töhfə verməklə elmi boşluğu aradan qaldırır.




(a)




(b)

**Diaqram 1. Qarabağ və ətraf ərazilərdə işğal dövründə fəaliyyət göstərən beynəlxalq şirkətlərin ölkələr və fəaliyyət sahəsi üzrə faizlə göstəricisi**

*Mənbə: Məlumatlar müəllif tərəfindən ayrı-ayrılıqda ER İqtisadiyyat Nazirliyi, Erməni Milli Maraqlar Fondu (ANIF), "Entreprise Armenia", Ermənistan Respublikasının Statistika Komitəsi, UNCTAD-ın Ermənistanın İnvestisiya Siyasət İcmalından toplanaraq tərtib edilmişdir.*




**Diaqram 2. Qarabağ və 7 ətraf rayonlarda qanunsuz fəaliyyətlə məşğul olan ölkələr**




**Diaqram 3. Qarabağda fəaliyyət göstərən şirkətlərin məxsus olduğu TOP 5 ölkələrin %-lə payı**

*Mənbə: Məlumatlar müəllif tərəfindən ayrı-ayrılıqda Trading Economics, ER İqtisadiyyat Nazirliyi, Erməni Milli Maraqlar Fondu (ANIF), "Entreprise Armenia", Ermənistan Respublikasının Statistika Komitəsi, UNCTAD-ın Ermənistanın İnvestisiya Siyasət İcmalından toplanaraq tərtib edilmişdir.*




**Diaqram 4. Qarabağa aid patentlər müxtəlif açar sözlərlə APO-nın patent bazasında (%-lə)**

*Mənbə: Avropa Patent Ofisi - APO, müəllif tərəfindən tərtib edilmişdi.*

II fəslin sonunda yarımfəslində qeyd olunur ki, II Qarabağ müharibəsi Ermənistanın ÜDM-inə mənfi təsir göstərdi. İqtisadi yavaşlama infrastrukturun zədələnməsi, ticarətin azalması və hərbi xərclərin artması kimi müxtəlif amillərdən qaynaqlanırdı. İkinci Qarabağ müharibəsində Ermənistanın məğlubiyyəti və çoxlu sayda hərbi itki verməsi ölkədə ağır siyasi-iqtisafi və sosial böhranın yaranmasına gətirib çıxardı. Aydındır ki, Ermənistan müharibədən öncəki dönəmdə belə kövrək iqtisadiyyata malik idi və xarici resurslardan və fondlardan ölkəyə ianə edilən gəlirlərdən asılı idi. İkinci Qarabağ müharibəsi Ermənistan iqtisadiyyatına açıq şəkildə böyük təsir göstərmişdir. Müharibədən sonra ən böyük iqtisadi problemlərdən biri Ermənistan iqtisadiyyatının xarici borcdan asılılığının artması idi.

İnkar edilməz faktdır ki, Qarabağ məsələsinin etno-siyasi konflikt olması bu prosesdə iki ölkə arasında bir mənalı şəkildə ƏM və mülkiyyət hüquqlarının tənzimlənməsi prosesini marginallaşdırırdı. Beynəlxalq səviyyədə ƏMH-nin qorunması ilə bağlı mövcud hüquqi

bazanın araşdırılması ilə dissertasiya işi işğal olunmuş ərazilərdə ƏMH-nin pozulması ilə bağlı mövcud olan boşluqları göstərir. Beləliklə, müəllif dissertasiya işində Qarabağ və ətraf ərazilərdə işğal dövründə mülkiyyət hüququnun necə qorunmalı və tənzimlənməli olduğu sualını qaldırır. Müəllif iqtisadi-hüquqi obyektivlər vasitəsilə ƏMH-nin tənzimlənməsi və qorunmasını araşdıraraq, fənlərarası yanaşma tətbiq edir.

Dissertasiya işinin **"Tədqiqatın nəticələri və II Qarabağ müharibəsindən sonrakı dönəmdə bərpa və quruculuq işlərinin başlıca istiqamətləri"** adlanan **III fəsildə** isə Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri, post-müharibə dönəmində dünya iqtisadiyyatı və siyasi iqtisadiyyatda proseslərin tədqiqi öz əksini tapmışdır. Müharibədən sonra Cənubi Qafqazda qüvvələr balansı və geostrateji mühit köklü dəyişikliyə məruz qaldı. Azərbaycan 2021-ci ilin əvvəlindən işğaldan azad edilmiş ərazilərində bərpa və yenidənqurma işlərinə başlayıb və bu istiqamətdə təxirəsalınmaz tədbirlər həyata keçirilir. Hazırda Qarabağ və ətraf ərazilərdə sürətli davam edən yenidənqurma işləri, Qərb və digər dövlətlərin manevrləri, zamanla gedişatın incəlikləri və axıcılığı dissertasiya işinin əsas mərkəzini təşkil edir. Beynəlxalq ictimaiyyət, o cümlədən Birləşmiş Millətlər Təşkilatı və Avropa İttifaqı kimi təşkilatlar, azərbaycanlı məcburi köçkünlərin Qarabağda məskunlaşması və reinteqrasiyasını dəstəkləmək üçün maliyyə yardımı, humanitar yardım və infrastrukturun inkişafı proqramları həyata keçirmişdir. Regionun inkişafına yönəlik hər bir tədbir və görüləcək işlər Qarabağ və ətraf ərazilərdə baş verəcək proseslərin daha yaxşı təhlil edilməsinə töhfə verməklə yanaşı, seçilmiş fəlsəfə doktoru mövzusunun aktuallığını və əhəmiyyətini əsaslandırmaq üçün fundamental əsas və təməl daşı rolunu oynayacaqdır. Regionun inkişafına yönəlik hər bir tədbir və görüləcək işlər Qarabağ və ətraf ərazilərdə baş verəcək proseslərin daha yaxşı təhlil edilməsinə töhfə verməklə yanaşı, seçilmiş fəlsəfə doktoru mövzusunun aktuallığını və əhəmiyyətini əsaslandırmaq üçün fundamental əsas və təməl daşı rolunu oynayacaqdır.

Ermənistanın aqressiv siyasəti regiona ancaq müharibə və dağıntılar gətirmişdir. II Qarabağ müharibəsi Cənubi Qafqaz regionunda yeni status-kvonun əsasını qoydu və qüvvələr balansını dəyişdi. Yeni

yaradılmış status-kvo gələcəkdə Azərbaycan və Ermənistanın qarşılıqlı iştirakı ilə sülh quruculuğuna və konkret sosial-iqtisadi layihələrin həyata keçirilməsinə yol açacaqdır. Bu prosesdə Azərbaycan həm reabilitasiya, həm də barışıq prosesində lazımi tədbirlər və tədbirlər görməklə Qarabağ bölgəsinin iqtisadi, sosial və mədəni dirçəlişində mühüm rol oynayacaqdır.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

1. Dissertasiya işində Qarabağ və onun yeddi ətraf rayonlarının Ermənistan tərəfindən işğalı zamanı qanunsuz iqtisadi fəaliyyətin, idxal və ixrac proseslərində əqli mülkiyyət və mülkiyyət hüquqlarının pozulması ilə bağlı mühüm məlumatlar və faktlar öz əksini tapmışdır. Tarixən müxtəlif yerli və xarici alimlər tərəfindən işğal olunmuş ərazilərin siyasi, iqtisadi və hüquqi nəticələri haqqında bir çox tədqiqatların olmasına baxmayaraq işğal dönəmində aparılmış qanunsuz idxal-ixrac əməliyyatları, xarici ölkələrə məhsulların konfiskasiyası və saxtalaşdırılması, Azərbaycan mülkiyyəti sayılan zəngin mineral və təbii resursların istismar olunaraqvə saxta etiketlənərək Ermənistan ticarət nişanı və ya məhsulu kimi qonşu və xarici dövlətlərə tranziti və bu kimi qanunsuz fəaliyyətlər elmi sahədə dərindən araşdırılmamışdır. Dissertasiya işi təkcə Azərbaycan nümunəsində deyil, eyni zamanda, ərazisi işğal olunmuş və gələcəkdə bu kimi hallarla üzləşə biləcək dövlətlər üçün də müvafiq inzibati-icra tədbirlərinin, islahatların keçirilməsi və qanunvericiliyin gücləndirilməsi istiqamətində öz töfhələrini verəcəkdir.

2. Tədqiqatçı dissertasiya işində Qarabağ kontekstində mülkiyyət hüquqlarına dair müzakirələrin diqqətdən kənarda qalmasının səbəbini dəqiq göstərir. Belə ki, öz milli yurisdiksiyası daxilində ƏMH-nin mühafizəsinin davamlı təkmilləşdirilməsinə baxmayaraq, Azərbaycanın işğal olunmuş regionda öz ƏMH-nin mühafizəsini effektiv şəkildə həyata keçirməsi Ermənistan tərəfindən əngəllənmişdir ki, bu da dissertasiya işində müfəssəl nümunələrlə vurğulandığı kimi ƏMH-nin müxtəlif formalarının Azərbaycan ərazilərində pozulmasına səbəb olmuşdur.  Müəllifin müəyyən etdiyi kimi, müxtəlif dövlətlərin işğal olunmuş ərazilərində ƏMH-nin qorunması və tətbiqi ilə bağlı çətin

vəziyyət yaşanır və bununla bağlı dərin elmi müzakirələrin olmaması ciddi iqtisadi-siyasi və hüquqi problemlər yaradır.

3. Dissertasiya işi göstərdi ki, müasir beynəlxalq siyasətdə əqli mülkiyyət və mülkiyyət hüquqları bəzi hallarda siyasi qərarlar və hökumətlərin coğrafi maraqları ilə məhdudlaşdırıla bilər. Belə ki, hər hansı ölkə daxilində müvafiq qaydaların faktiki icrasına və tətbiqinə gəldikdə, milli qanunlar əsas götürülür. Bu onu deməyə əsas verir ki, Ermənistan beynəlxalq hüquqi və çərçivə sənədlərinə, hətta ÜƏMT-nin hüquqi sənədlərinə məhəl qoymadan öz daxili qanunları və sərəncamları hesabına xarici şirkətlərlə birgə bu ərazilərdə qanunsuz fəaliyyəti aktiv şəkildə həyata keçirmişdir və sərmayə qoyuluşunu dəstəkləmişdir. Dissertasiya işi aşkara çıxardı ki, işğal olunmuş ərazilərdə Azərbaycanın inzibati-icra mexanizmlərinin kövrək olması və ərazi prinsipallığına görə Ermənistan milli qanunları ÜƏMT-na üzv olan dövlətlərin qəbul etdiyi qanunlar tərəfindən müdaxilə edilə bilməz və onun milli qanunları beynəlxalq hüququn prinsiplərinə zidd olsa da, Qarabağ və ətraf ərazilərdə faktiki legitim hüquqa malik idi.

4. ÜƏMT-nın və APO-nun patent bazasında Ermənistan tərəfindən "Qarabağ", "Nagorno-Karabakh" "Karabakh" və "Artsax" açar sözü ilə patentlərin bazada yerləşdirilmişdir. (Əlavə 24, 25, 26, 27) və bununla bağlı təəssüflər olsun ki, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi tərəfindən müvafiq tədbirlər həyata keçirilməmiş və işğal olunmuş ərazilərə dair qanunsuz patentlər və ticarət nişanları haqqında araşdırma edilməmişdir. Ermənistanla təxminən otuz ildir davam edən Qarabağ münaqişəsi nəticəsində işğal dönəmində Azərbaycan Qarabağ və ətraf rayonlarda səlahiyyət məhdudiyyətləri ilə üzləşmişdir. İşğal dövründə Qarabağ və ətraf ərazilərdə icra mexanizmlərinin kövrəkliyi və yurisdiksiyanın əskikliyi Azərbaycanın əqli mülkiyyət hüquqlarının pozulmasına, təbii sərvətlərinin istismarına səbəb olmuşdur. Azərbaycanın qeyri-qanuni ixrac və idxal həcmlərinə müdaxilə edə bilməməsinin əsas səbəbi Ermənistanın ərazi prinsipi və Ermənistanın əqli mülkiyyət, mülkiyyət, iqtisadi fəaliyyətlə bağlı qanun və qaydalarının tətbiqi olmuşdur.

5. İşğal zamanı Ermənistan Qarabağ və ona bitişik yeddi rayonda təbii sərvətlərin aprobasiyasını, malların, xidmətlərin və əşyaların istehsalı, idxalı və ixracını fəal şəkildə təşviq etmiş və dəstəkləmişdir.

Ermənistan həmçinin Azərbaycanın işğal olunmuş ərazilərindən faydalı qazıntıları və digər ehtiyatları həm ölkə daxilində, həm də xaricə çatdırmaq üçün nəqliyyat bazası (Basarkeçər – Ağdərə) kimi istifadə etmişdir. Ermənistanın qədim Dissertasiya işi Azərbaycanı beynəlxalq tərəfdaşlarını onun suverenliyi və ərazi bütövlüyü pozulduğu təqdirdə cinayət məsuliyyətinə cəlb edilməyə, o cümlədən Qarabağ regionunda və yeddi ətraf ərazilərdə qanunsuz fəaliyyətə kömək etməyə cəhd edənlər dövlətlər, qurumlar və fərdlərin mühakimə olunmasına çağırır.

6. Dissetasiya işi ÜƏMT, ÜTT, Aİ-nin Assosiasiya Sazişləri, APO və digər beynəlxalq və regional qurumları ərazisi işğala məruz qalmış həssas ölkələrə münasibətdə beynəlxalq hüquqi çərçivə sənədlərinə və qanunlara dəyişikliklər və ya əlavələr edilməsini tövsiyə edir. Bu kimi əlavələr və dəyişiklər təkcə regional və ya beynəlxalq səviyyədə deyil, eyni zamanda, ərazisi işğala məruz qalmış milli dövlətlər səviyyəsində də, onların qanunlarına münasibətdə nəzərə alınmalı, zəruri dəyişikliklər edilməli, inzibati, icra və hüquqi sistemlərdə islahatlar keçirilməlidir.

7. Dissertasiya işi mövzu ilə əlaqədar müxtəlif dövlətlər nümunəsində gələcək elmi tədqiqat işlərinin ortaya çıxması, mülkiyyət və əqli mülkiyyətin pozulması kontekstində qanunsuz idxal və ixrac, iqtisadi fəaliyyət və istismarla əlaqədar elmdəki boşluqların aradan qaldırılması və elmi maarifləndirmənin aparılmasında mühüm rol oynayacaqdır.

8. Dissertasiya işi aşkara çıxardı ki, bütün qeyri-qanuni iqtisadi fəaliyyətlər aydın şəkildə göstərir ki, Ermənistan əvvəllər işğal olunmuş ərazilərin təbii sərvətlərindən nəinki öz iqtisadi mənfəətləri və inkişafı, eyni zamanda, Erməniləşdirmə siyasətinin əsasını təşkil edən milli kimliyin dəyişdirilməsi üçün əhəmiyyətli dərəcədə istifadə etmişdir. Dissertasiya işi sübut etdi ki, tarixi Azərbaycan ərazilərində Ermənistanın həyata keçirdiyi köçürmə siyasəti və iqtisadi fəaliyyətlərdə əsasında Pan-Ermənistan strategiyası və Erməniləşdirmə siyasəti dururdu.

9. İqtisadi hüququn tərkib hissəsi olan legitim sahibkarlıq, ticarət balansı, resursların düzgün istismarı, idxalı və ixracı prosesləri məhz hüquqi elementlərin əskikliyi səbəbindən Qarabağ və 7 ətraf rayonlarda işğal dövründə təmin oluna bilməmişdir. Dissertasiya işi göstərdi ki, imperium və dominium səlahiyyətləri tam icra olunan ölkələrdə iqtisadi

hüquq üstün olur. Azad ticarət, idxal və ixrac, azad sahibkarlıq iqtisadi hüquqla tənzimlənir. Tədqiqat işi nəticə etibarilə, iqtisadi hüququn vacibliyini meydana çıxararaq, iqtisadiyyatın və sahibkarlıq fəaliyyətinin hüquqla qarşılıqlı əlaqəsinin olduğunu bir daha vurğulamış oldu.

10. 30 illik işğal dönəmində bu ərazilərdə mülkiyyət hüququ, qanunsuz iqtisadi fəaliyyətlə bağlı problemlər nə dövlət səviyyəsində, nə də beynəlxalq hüquq normaları çərçivəsində həllini tapmışdır. Tədqiqatçı ilk dəfə olaraq dissertasiya işində işğal olunmuş ərazilərdə ƏM-in və mülkiyyət hüquqlarının, iqtisadi fəaliyyətin idarə olunması mexanizmi və mühafizə sistemi ilə bağlı bütün məlumat və faktları toplamışdır. Seçilmiş tədqiqat işi aktual olsa da, bu günə qədər dərindən araşdırılmadığı üçün elm tutumlu monoqrafiya və tutarlı məlumat əskikliyi hələ də mövcuddur.

11. Dissertasiya işi azad ticarətin hüquqi təminatı, mal və xidmətlərin təşkili, əqli mülkiyyətin tənzimlənməsi və qorunması, qeyri-qanuni ixrac və idxal prosesinin qarşısının alınması üçün müvafiq iqtisadi, inzibati və icra tədbirlərinin həyata keçirilməsinə mühüm töhfələr verəcəkdir. Azərbaycan tərəfi sərhəd nəzarətini gücləndirilməli, qaçaqmalçılıq və qeyri-qanuni ticarət fəaliyyətlərinin qarşısını almaq üçün sərhədlər boyunca daha yaxşı müşahidə və kəşfiyyat imkanları yaradacaqdır.

12. Dissertasiya işi vurğulayır ki, Azərbaycanın məlumat və resursları bölüşmək üçün qonşu ölkələr, beynəlxalq təşkilatlar və hüquq-mühafizə orqanları ilə əməkdaşlığı transsərhəd qeyri-qanuni ticarətlə effektiv mübarizə aparmağa şərait yaradacaqdır. Azərbaycan qaçaqmalçılıq, korrupsiya və qeyri-qanuni ticarətin digər formalarını hədəf alan qanunvericilik bazasını gücləndirməlidir. İşğaldan azad olunmuş ərazilərdə qanuni biznes fəaliyyətini və iqtisadi artımı təşviq etməklə hökumət alternativ gəlir imkanları təmin edə və cinayət fəaliyyətləri üçün stimulları azalda bilər. Dissertasiya işində əks olunan vacib empirik məlumatlar elmi sahədə qeyri-qanuni ticarətin və iqtisadi fəaliyyətin nəticələri haqqında savadlılığın artırılmasında və bu kimi aktual bir sahədə elm tutumlu gələcək tədqiqatların aparılması və boşluqların aradan qaldırılmasında mühüm rol oynayacaqdır.

13. Dissertasiya işi bundan sonrakı elmi araşdırmalar üçün baza

rolunu oynayacaqdır. Tədqiqat işinin materiallarından, oxşar problemlərin təhlili və araşdırılması zamanı, ali məktəblərdə dünya iqtisadiyyatı, siyasi iqtisad, siyasi elmlər, konfliktologiya və əqli mülkiyyətə dair fənlərin tədrisi prosesində istifadə oluna bilər. Eyni zamanda, elmi iş yeni və aktual bir sahə olan qanunsuz bazar və digər iqtisadi fəaliyyətlərin analiz edilməsinə daha yaxşı cavab verən iqtisadi sosiologiya sahəsinin vacibliyini də önə çıxarır.

Tədqiqatçının dissertasiya işində elmi ədəbiyyatların dərindən təhlilinin nəticəsi olaraq gəldiyi mövqe odur ki, işğal olunmuş ərazilər sferasında qeyri-qanuni bazarla bağlı fəaliyyətlərə toxunan mövcud elmi araşdırmaları azlıq təşkil edir. Son olaraq, dissertasiya işi açıq şəkildə göstərir ki, Qarabağ və ətraf rayonlarda işğal dönəmində dövlət və qeyri-hökumət qurumları tərəfindən həyata keçirilən qeyri-qanuni bazarla bağlı fəaliyyətlərin tədqiq edilməsi təkcə keçmiş Sovet Respublikalarında deyil, həm də digər coğrafi bölgələrdə də münaqişəli və ya işğal olunmuş ərazilərə dair mövcud tədqiqatlardakı əhəmiyyətli elmi boşluğu aradan qaldırır. Həqiqətən də, bu tədqiqatın nəticələri, Avrasiya və ondan kənarda münaqişəli ərazilərlə mübarizə aparan dövlətlərlə bağlı elmi ədəbiyyatların genişlənməsinə və elmi maarifləndirmənin artmasına çox mühüm töhfələr verəcəkdir.

***Dissertasiyanın əsas elmi nəticələrini əks etdirən elmi əsərlər aşağıdakı elmi nəşrlərdə yayınlanmışdır:***


1. “The evaluation of illicit activities in the liberated territories of Azerbaijan during the occupation” // Azərbaycan Universiteti, Gənc tədqiqatçıların IV Respublika Elmi – Praktiki Konfransı, 9 April 2021 Bakı, Azərbaycan, IV nəşr, səh.98-100 /
2. “Violation of IPR in the Process of Illicit Activities during the Occupation of Azerbaijani territories” // Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), “Nizami Gəncəvi və davamlı inkişaf” adlı III. İqtisadiyyat və idarəetmə sahəsində magistr və doktorantların beynəlxalq elmi Konfransı 4 - 7 iyun, 2021, Gəncə, Azərbaycan, III nəşr, səh.1709-1716 / Link:
3. “Dağlıq Qarabağın işğalı dövründə əqli mülkiyyət problemləri: iqtisadi və siyasi faktorlar” // Azərbaycan Respublikası Təhsil Nazirliyi,

Azərbaycan Memarlıq və İnşaat Universiteti, "Qarabağ regionunun iqtisadi və sosial inkişaf problemləri" mövzusunda Respublika Elmi – Praktiki konfrans Materialları 2 aprel, 2021, Bakı, Azərbaycan, I nəşr, səh. 129-131

4. "Economic Evaluation of "Green Energy" Potential in Nagorno-Karabakh and Neighboring Regions" // Modern Applied Science (MAS) Canadian Center of Science and Education ISSN(Print): 1913-1844 ISSN(Online):1913-1852, 28 May, 2021 Kanada, Modern Applied Science Jurnalı. Cild. 15, No. 3; 2021, səh. 71-74
5. "Economic and legal assessment of the violation of property rights during the occupation of Azerbaijani territories" // Czech Technical University, Faculty of Civil Engineering Business & IT journal, ISSN 1805-3777 (print versiyası), ISSN 2570-7434, 5 yanvar, 2020, Praqa, Çexiya Respublikası XI cild, No 1, s.47-53
6. "Azerbaijan fighting on two fronts: Covid-19 and Nagorno-Karabakh War" // Sürix Universitetinin Siyasi elmlər və beynəlxalq hüquq departamenti, İsveçrə Konfederasiyası, Democracy Net, "One Year with Covid-19" edited by Christian Ewert & Lea Heyne, ISBN: 978-3-75340-228-4, 10 yanvar, 2021, Sürix, İsveçrə Konfederasiyası, I nəşr, səh. 129-134
7. "The EU and Karabakh: Change in Balance of Power and New Status Quo" // Sürix Universiteti, Şərqi Avropa Araşdırmaları beyin mərkəzi, İsveçrə Konfederasiyası Konfrans - Europe's Geopolitical Future: Mapping Perspectives on EU Policy in its Eastern Neighborhood, 10-12 mart, 2021, Sürix, İsveçrə Konfederasiyası, səh. 1-3
8. "Economic and Legal Assessment of Illicit Activities during the Occupation of Karabakh and its Adjacent Districts" Ruminiyanın Vasile Goldiş Universitetinin maliyyə dəstəyilə Society and Politics Elmi jurnalı, 15 January, 2022, Arad, Ruminiya, Cild 14, No 1, səh.22-44
9. Politicization or Lack of IPR within the context of Karabakh: Political instabilities and tendencies / Birləşmiş Krallıq, York University, York Hüquq məktəbi, Socio-legal studies association annual conference 2022, York, 6-8 April, 2022,
10. "The Economic Evaluation "RES" Potential in Azerbaijani territories: The case of Karabakh and its adjacent districts" // Dunaujvaros Universiteti, Macarıstan, Macarıstan Elmi 2021 çərçivəsində təşkil

olunmuş beynəlxalq elmi konfrans (Elm Həftəsi) Celebration Of Hungarian Science., 8-9 November, 2021,

11. "Economic and legal assessment of illicit activities during the occupation of Nagorno-Karabakh and its adjacent districts" // Lozanna Universitetində İsveçrə Siyasi elmlər Assosiasiyası tərəfindən təşkil olunan illik Konqres 2022 İsveçrə Siyasi Elmlər Assosiasiyası BÖHRAN SİYASƏTİ, 3-4 fevral 2022, Lozanna Universiteti, İsveçrə Konfederasiyası
12. "The Application of "green Economy" Policy of Switzerland and Sweden to the Karabakh Region of Azerbaijan: Review and Appraisal" // V İqtisadiyyat Və İdarəetmə Sahəsində Tədqiqatçilarin Beynəlxalq Elmi Konfransı // Marriott Bulvar hotel, 23-26 Iyun, 2022, Bakı, Azərbaycan, səh. 1304-1321
13. "The Politicization of Intellectual Property Rights in the Context of Karabakh" // Polşa Respublikasının Elm və Təhsil Nazirliyinin maliyyə dəstəyi ilə Polşanın tanınmış Varşava Universiteti və Adam Miçkeviç Universitetinin Siyasi elmlər və iqtisadiyyat məktəbinin birgə elmi jurnalı "Strategic Review", Poznan, Polşa dekabr 2022
14. "Violation of IPR during the occupation of Karabakh and surrounding areas: Legal documents review and appraisal" // Birləşmiş Krallıq Cogent Social Sciences jurnalı, 2022, IX cild,
15. "Violation of IPR during the occupation of Karabakh and surrounding areas: Legal documents review and appraisal" // Bazel Beynəlxalq Elmi Konqresi, Bazel Universiteti, İsveçrə Siyasi Elmlər Assosiasiyası, 2-3 fevral 2023
16. "Legal Documents Review on the Violation of Intellectual Property Rights in the Karabakh Region of Azerbaijan" // Nanyang Texnologiya Universiteti və Nanyang Biznes Məktəbinin tərəfindən 2023-cü ilin 1-3 mart tarixlərində keçiriləcək V Asiya Tədqiqatçıların Əqli mülkiyyət və innovasiya beynəlxalq elmi konfransı. // 1-3 mart 2023
17. "Green energy potential of Karabakh and adjacent regions of Azerbaijan" // 3rd International Conference on Cyprus Issue: Environmental Challenges and Energy Security (ECES), 21-23 December, 2022,
18. "The assessment of legal documents on the violation of intellectual property rights in the context of the Karabakh region of Azerbaijan

during the occupation" // SLSA conference 2023 at Ulster University, Birləşmiş Krallıq, 4-6 April 2023,
19. The Change in Geostrategic Situation: EU Economic Globalization Policy Following Wars in Eastern Europe, 23-25 June 2023, ISCEMR 2023 - International Scientific Conference, Azerbaijan State University of Economics (UNEC).
20. Hajiyeva, N., Mammadova, U., Abdullazade, A., & Malikov, A. (2023). E-Karabakh and Beyond: Revealing the Digital Landscapes in Azerbaijan's Liberated Territories. Agora International Journal of Juridical Sciences, 17(2), 139-145.
21. Hajiyeva, N & Gulahmadov, M, (2023). The Geopolitical Implication of The Zangazur Corridor: A Driver for Regional Advancement and Linkage. Agora International Journal of Economical Sciences, 17(2), 47-53.
22. Hajiyeva N., Assessment of Illegal Export Volumes During the Occupation of Nagorno-Karabakh and Its Neighboring Districts, (2022). International Conference on Economics "Regional Development - Digital Economy", Azerbaijan State University of Economics (UNEC), Baku, Azerbaijan
23. Hajiyeva N., Violation of Property Rights in Karabakh and Adjacent Territories During Occupation: Legal Documents Review And Appraisal, (2023). International Conference on Economics "Regional Development - Digital Economy", Azerbaijan State University of Economics (UNEC), Baku, Azerbaijan

Dissertasiyanın müdafiəsi "26" aprel 2024-cü il tarixdə saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Ali Attestasiya Komissiyasının və Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir (http://unec.edu.az/tedqiqat/dissertasiya-surasi/)

Avtoreferat "19" mart 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.03.2024.
Kağızın formatı: 60x84 1/16.
Həcmi 1 ç.v. (43572 işarə)
Tiraj 100.

*“AA – Poliqraf” istehsalat-kommersiya birliyində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.
Əlaqə üçün: capevi@internet.ru / (+99455) 201-2809*